# İşğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işləri uğurla davam edir



***Azərbaycan işğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində genişmiqyaslı fəaliyyətə başlayıb. Artıq bir sıra istiqamətlərdə, xüsusən regionun enerji ilə təminatı, yol infrastrukturunun qurulması, dəmir yolu xətlərinin və hava limanlarının tikintisi sahəsində ciddi addımlar atılmaqdadır. Təbii ki, Prezident İlham Əliyevin həmin ərazilərə səfərləri zamanı yeni-yeni obyektlərin təməlinin qoyulması da işlərin ardıcıllıqla davam etdiyini göstərir.***

Dövlət başçısının, demək olar ki, bütün çıxışlarında, xarici ölkələrin nümayəndələri ilə təmaslarında da Qarabağın bərpası əsas müzakirə mövzusu olur. Prezident İlham Əliyev bu mövzuda danışarkən işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən infrastruktur layihələri, investisiyaların cəlb olunması barədə məlumat verir. Bildirir ki, həmin ərazilərdə yenidənqurma prosesi gedir, qarşıda nəhəng işlər durur və böyük bir ərazi tamamilə yenidən qurulacaq. Ermənilər tərəfindən vəhşicəsinə dağıdılmış ərazilərin yenidən qurulması ölkədə iqtisadiyyatın qeyri-enerji sektorunun, xüsusilə tikinti sahəsinin inkişafına təkan verəcək.

Prezident "ağıllı kənd" konsepsiyası ilə yenidən qurulacaq kəndlərin təməlinin qoyulduğunu, işğaldan azad edilmiş əraziləri "yaşıl zona" elan etdiyini, həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyasından istifadə olunacağını, şəhərlər üçün baş planların hazırlandığını, enerji istehsalı, elektrik enerjisi, avtomagistrallar, dəmir yolları, hava limanları ilə bağlı infrastruktur layihələrinin həyata keçirildiyini qeyd edib.

Azərbaycan lideri keçirdiyi görüşlərdə ərazilərin tamamilə bərpa olunacağını bildirib. Onun sözlərinə görə, Vətən müharibəsi dövründə Azərbaycan–İran sərhədi tam bərpa edilib, işğal altında olmuş 132 kilometr sərhəd azad edilib. Müharibədən dərhal sonra sərhəd boyunca bütün lazımi istehkam, mühafizə işləri görülüb. Hazırda həm Azərbaycan-İran, həm Azərbaycan–Ermənistan sərhədləri boyunca lazımi işlər aparılır.

Dövlət başçısı bildirib ki, 30 ilə yaxın müddət ərzində işğalçı qüvvələrin əlində olmuş bu sərhədin uzunluğu 500 kilometrə yaxındır: "Biz Vətən müharibəsində Qələbə qazanaraq bu sərhədi də tam bərpa etdik, Zəngilan və Qubadlı rayonlarını, Laçın rayonunun bir hissəsini döyüşərək azad etdik. Laçın rayonunun böyük hissəsini və Kəlbəcər rayonunu düşmən artıq məcbur olub kapitulyasiya aktını imzalayaraq bizə qaytarıb. Hazırda o ərazilərdə lazımi işlər aparılır".

Azərbaycan Prezidenti Ermənistanda baş qaldıran revanşist qüvvələrə də dəfələrlə xəbərdarlıq edib ki, bizə qarşı ərazi iddialarından, təxribatlardan əl çəksinlər: "Əgər bir daha buna cəhd göstərilərsə, düşmən yerindəcə məhv ediləcək. Biz öz sərhədimizi qoruyuruq və bundan sonra da qoruyacağıq. Hər bir ölkənin sərhədi onun dövlət rəmzlərindən biridir. Azərbaycan öz sərhədlərini, ərazi bütövlüyünü tam bərpa edib".

Prezident İlham Əliyev müxtəlif beynəlxalq təşkilatların tribunalarından da istifadə edərək, həm Ermənistanın vandallığını ifşa edib, həm də deyib ki, hazırda ölkəmizin qarşısında işğaldan azad olunmuş ərazilərdə tamamilə dağıdılmış şəhər və kəndlərin, bütün mədəni və dini abidələrin bərpası kimi nəhəng vəzifə dayanır. Yenidənqurma prosesi çərçivəsində "ağıllı şəhər", "ağıllı kənd" və "yaşıl enerji" konsepsiyalarından istifadə olunacaq: "Mən dost ölkələrdən olan şirkətləri işğaldan azad olunmuş ərazilərdə irimiqyaslı yenidənqurma işlərinə dəvət edirəm".

Hazırda bərpa-quruculuq işləri uğurla davam edir. Təbii ki, bu işləri Azərbaycan öz gücü, öz vəsaiti hesabına həyata keçirir. Məqsəd isə işləri mümkün qədər tez başa çatdıraraq, köçkün vətəndaşlarımızı ləyaqətli şəkildə doğma yurdlarına qaytarmaqdır. İnanırıq ki, Prezidentimizin dönməz iradəsi bu prosesi də uğurla başa çatdırmağa imkan verəcək.

***Arzuman MURADLI,***
***politoloq, iqtisadiyyat üzrə fəlsəfə doktoru***

Xalq qəzeti .- 2022.- 10 aprel.- S.4.